Fəlsəfə doktoru Sabir Bəşirov Əli Rza yaradıcılığının bu təmayülünə də işarə edib:" Əli Rza Xələfli XX əsrin 80-ci illər ədəbi nəslinə mənsub çox istedadlı şair, publisist, nasirdir. Əli Rza Xələfli 80-ci illər ədəbi nəslinin poeziyada, publisistikada simasını müəyyən edən az sayda olan yaradıcı insanlardandır... Onun çox məhsuldar yaradıcılığının bir qolunu da tədqiqatçılıq - araşdırıcılıq təşkil edir".

Əli Rzanın bu tədqiqatçılıq-araşdırıcılıq xüsusiyyətinə konkret bir misal çəkmək yerinə düşərdi. Mənim "Bakıdan Yardımlıya səyahət" adlı poemam 2010-cu ilin əvvəllərində "Kredo"da işıq üzü gördü. Əli Rzanın həqiqətən də böyük istedadı və son dərəcə gərgin, genişmiqyaslı, titanik zehni fəaliyyəti nəticəsində mümkün olmuşdur. Sonralar bu 600 səhifəlik əsərə yazdığı Ön sözündə prof. Qəzənfər Kazımov öz heyrətini gizlədə bilməmişdi: "Axı bu poema - 120 səhifəlik bu əsər nə imkan verir ki, Əli Rza bu qədər söz deyir? Yadıma düşdü ki, bir vaxtlar Ə.Haqverdiyevin 40 səhifəlik "Dağılan tifaq" pyesini əsas götürməklə mən özüm 300 səhifəlik dissertasiya yazmışam".

Əli Rza bizim eranın I əsrində yaşamış, gəzə-gəzə, xalq qarşısında siyasi, fəlsəfi nitqləri ilə məşhurlaşmış Demosfendən məhz ədəbi cameədə qabaqcadan planlaşdırılmayan, müəyyən vaxt üçün nəzərdə tutulmayan hər hansı konkret bir mövzuya hazırlaşmadan, ekspromt, situativ, hündürdən, bəlağətli çıxışları ilə fərqlənir. Təsadüfi deyil ki, o, yeri gəldikcə orijinal və nəhəng publisistikasında öz

# XƏLƏFLİNİN "KREDO"SU

mülahizələrini qüvvətləndirmək üçün dünya ədəbiyyatının məxəzlərinə, yunan, Roma və Şərq ədəbiyyatı qaynaqlarına, ədəbi-bədii, mifoloji obrazlara, ibrətli ədəbi hadisələrə, məşhur tiplərə, arxetiplərə müraciət edir. Yaxud ədəbitənqidi görüşlərini eraların sərt sınaqlarından çıxmış Sokratdan, Aristoteldən, Plutarxdan, İmam Əlidən, Farabidən, Nəsirəddin Tusidən, Füzulidən, Bualodan, sevimlisi Belinskidən, Çernışevskidən və müasir dövrə qədər adlarını çəkmədiyim digər böyük zəka sahiblərindən gətirdiyi sitatlarla əsaslandırır. Bu, onunla əlaqədardır ki, Əli Rza dərin savada, zəngin söz ehtiyatına, yüksək yaradıcılıq temperamentinə, orijinal erudisiyaya, hüdudsuz təxəyyülə malikdir. Onun haqqında vaxtilə yazdığım müşahidələrimi təkrarlamadan əlavə edirəm ki, bu odlu-alovlu söz adamının şifahi nitqləri, diktələri ilə qeydə alınan yazıları arasında demək olar ki, fərq yaranmır, hər hansı redaktəyə ehtiyac hiss olunmur. Bu iki proses (nitq və yazı) bir-birindən qətiyyən təcrid olunmur, əksinə eynən bir-birinin davamı olan, hissələrinə parçalanmayan, bütöv, hazır bir təfəkkür məhsuluna çevrilir. Burada analiz, sintez, müqayisə, mücərrədləşdirmə, ümumiləşdirmə və konkretləşdirmə - bütöv bir psixoloji sistem kimi özünü göstərir.

* * *

Əziz dostum Əli Rzaya yeni-yeni yaradıcılıq uğurları diləyib, müdrik el ağsaqqalı olmuş atası Zalov Zal Əziz oğlunun diliylə deyirəm:" Könül evindən sevinəsən!" və ona ithaf etdiyim şeirlə sözlərimi bitirirəm:

Elin dərviş oğlu arifanəsən,
Haqqa min vəcd ilə aşiqanəsən.
Sufi babalardan bir nişanəsən,
Nəsimi, ya Həllac Mənsur sələfli
Əli Rza Xələfli

Sən söz axtarmırsan, söz səni gəzir,
Bəsirəti görən göz səni gəzir.
Həqiqət axtarır, düz səni gəzir,
Özün ləyaqətli, işin şərəfli
Əli Rza Xələfli.

Sözün - ahənrüba, düşüncən - dərin,
Yəqin Xudam deyib sənə: "Afərin!"
Canlı bir abidə - bir Xudafərin,
Həsrət körpüsüsən - iki tərəfli,
Əli Rza Xələfli.

Elm ilə, ədəblə nəfəs alırsan,
Bu ana torpaqdan həvəs alırsan.
Sözün dərgahından əvəz alırsan,
O, uzaq mənzilli, ürək hədəfli
Əli Rza Xələfli.

Ruhunda türk eşqi, Turan eşqi var,
Yüksək bir əqidə, iman eşqi var.
Səndə Tanrı eşqi, insan eşqi var,
Həmişə dürr tökən sinə sədəfli,
Əli Rza Xələfli.

*(ixtisarla)*

***Hafiz RÜSTƏM***
***"Respublika" qəzeti, 26.X. 2013***

Kredo.- 2026.- 4 fevral (№05).-